Ədalət.- 2020.- 9 iyun. S. 8.

# Dəniz adlı bir dünya



Gülnaz Qubalı

*Hekayə*

Doğma Bakı,ucu-bucağı görünməyən, həmişə dalğalanaraq var olduğunu bildirən, mavi Xəzər dənizi yenə də sinəsini günəşin şəfəqləri altında günəşə verirdi. Qızmar yay günəşi də ən yüksək nöqtədən boylanaraq öz şüalarını dənizin və sahildəki sapsarı kəhrəba kimi qumların üzərinə səpələmişdi. Yay günəşinin şüaları bu sularda bərq vuraraq, sanki rəqs edirdilər. Elə bil, hər gün günəş bu suların üzərində güzgü kimi öz əksinə tamaşa edərək saçlarını darayır, özünə sığal verib cilvələnirdi. Dəniz də öz növbəsində vəfalı dostunu hər zamanki kimi gülərüzlə qarşılayaraq, öz ılıq sularından ləpələr hazırlayıb yelləməklə hər səhər qarşısına çıxıb günəşi salamlayırdı. Axşama qədər birlikdə bir-birinə həmdəm olub, axşam isə mehribancasına, dostcasına sağollaşıb ayrılardılar. Günəş də adəti üzrə öz qızılı saçaqlarını yığaraq, qürüb edib üfüqdə ipək parça kimi sürüşüb gözdən itərdi. Dəniz isə suda əks olunan rəngarəng günəşin şüalarından bərq vururdu.

Tərkindəki yamyaşıl yosunlar günəşin çıxmasından canlanıb Xəzərin ılıq, şor sularında yelləncək kimi yellənərək dənizi cavanlıq rəmzi olan yaşıl,zümrüd rənginə boyayırdı. Bu rəng möhtəşəm Xəzərə yaraşıq verməklə yanaşı,bir rəssam tablosu yaradırdı.Dəniz elə bil öz tərkindəki varlıqları ilə möhtəşəm bir tabloya, bir canlı əsərə çevrilmişdi.Sahilindəki qaynar,sarı kəhrəba kimi qumlar da rəngarəng çəhrayı, boz, tünd narıncı balıqqulağıları ilə dolu idi.Bu balıqqulağılar günəşin şüalarında yerlərə səpələnmiş ləl-cəvahiratlar kimi bərq vuraraq rəngdən-rəngə çalırdılar. Dəniz iri, bir-biri ilə bəhsə girən ləpələri ilə sahilə doğru yan alarkən öz köpüklü suları ilə bu balıqqulağılara sığal verib, tumar çəkib, çimizdirib daha da gözəlləşdirirdi.Çox səbrli heykəltəraş və rəssam olan ana təbiət,bu dənizi öz qoynunda,öz mahir fırçası ilə elə füsunkar,elə ovsunlayıcı yaradıb ki, üzərində olan qızılı günəş də,sahilində olan qum dənəcikləri də və üzərində olan balıqqulağıları da, yağışdan sonra çıxan yeddi rəngli möcüzəvi göy qurşağı,yerbəyerdən monimental heykəli xatırladan,suların özünəməxsus tərzdə yonaraq şəkil verdiyi boz, yöndəmsiz qayalıqları da, elə hətta dənizə xüsusi ətir və görkəm verən tərkindəki balıq və yamyaşıl yosunları belə çox mütənasib və çox mükəmməl şəkildə yerləşdirmişdi. Elə bil bunların hərəsi bir əl işi olmaqla yanaşı, hərəsi əl ilə öz yerlərinə hesablanıb qoyulmuşdu.Hərə də özünə aid işi görürdü.Hətta dənizin üzərində çox alçaqdan qışqıra-qışqıra süzərək uçan,balıq axtarışında olan ağ qağayılar belə adamı valeh edirdilər.Özündə, çox qabarıq şəkildə miniatürlər dünyasını əks etdirən bu dənizə qoşulan mahnılar, şerlər heç də əbəs yerə deyilmiş. Bir çox bədii və cizgi filmlərinin əsas sujet xətti elə təbiət özü və dəniz panoramasıdır.

Ard-ardınca qıjıltı ilə sıralanıb gələn ağ mirvari boyunbağını xatırladan köpüklü, irili-xırdalı qırçınlı ləpələrə,dalğalara baxmaqdan doymaq olmurdu.İnsan təbiətin bu möhtəşəm kompozisiyasının arasında şəffaf bir su damcısına bənzəyir.Dənizin özünəməxsus musiqisi adamı valeh edir.Elə bil dəniz bu melodiyanı özü bəstələyib.Öz dalğaları ilə dənizə şəkil verib.Hələ çox uzaqdan,dənizə çatmamış belə dənizin qəribə,qeyri-adi rayihəsi hər kəsdə xoş əhval-ruhiyyə yaratmaqla yanaşı onlara sevinc bəxş edirdi.Dənizə gələn hər kəs ilk baxışda bu qəribə təsir bağışlayan yosun və dəniz ətrini ciyərlərinə çəkib,xoş təəssüratlar altında çox xoşbəxt görünürdülər.Mavi dəniz və buraya axışan axın-axın insanlar da bu qeyri-adi ətir ilə ətirlənmişdilər.

Sahilboyu ayaqyalın,əl-ələ tutub gedən sevgililərin çöhrəsinə isə bir məmnunluq ifadəsi qonmuşdu.Yaş qumun üzərində ardından ayaq izləri buraxaraq gedən bu iki sevgilinin gözlərindən oxunan xoşbəxtlik, adamın qəlbini riqqətə gətirirdi. Bu sevincdən əlbəttə ki,dənizə də pay düşürdü. Qızılı qumların üzərindəki addım izlərini isə qıjıltı ilə ard-arınca gələn ləpələr yuyaraq yenidən dənizə qayıdırdı.Ləpələr elə bil bu iki gənc sevgilini uzaqdan izləyərək onları təbrikə tələsirdilər və onların yalın ayaqlarını öpərək sevgililəri bu yolla təbrik edib,təbəssüm yağdırırdılar. İki gənc bir-birini sevdikdə nədənsə görüşdükləri yer çox vaxt dənizin sahili olur.Bəlkə də onlar dənizin dalğalarını,sularını seyr etdikcə sevgilərinin dəniz kimi uzunömürlü,pak, təmiz olacağına inanırlar, öz sevgilərini dənizlə bölüşürlər ki, dənizi özlərinə vəfalı dost, duaçı, həmdəm sanırlar.Dənizdə yaranan təlatümdən əmələ gələn şıltaq, tonlarla ağırlıqlı nəhəng dalğalar sahilə zərblə çırpılaraq bir neçə metr kənara sıçramaqla ətrafa narın su çiləyirdi.Və bu kənara çilənən narın su damcıları özü ilə ətrafa dəniz rayihəsini də yayırdı.Mavi suların üzərində uzaqdan iri yük gəmisinin boğuğ uzun-uzadı fit səsi bu tünlüyə, bu qaynar həyata daha da təkan verirdi.Katerlər dənizin üzərində mavi suları yara-yara çox sürətlə üzərək dənizin ortasında ləpələrin atıb tutduğu bir oyuncağı xatırladırdı.Ağ yelkənl qayıqlar isə elə bil suyun üzərində ağ libasdakı təzə,nazlı gəlinlər kimi süzürdülər.

Dənizçilərin ikinci evi sayılan dənizdə,öz balıq torunu qurub taxta avarlarını asta-asta çəkərək tələslə o tərəf bu tərəfə üzən qayıqçılar da, üzərində rəngli şarları olan balıq torunu gözdən-nəzərdən qoymadan, ordan yayınmayaraq, dənizin ortasında balıq gözləyirdilər.Səxavətli və comərd dəniz də öz səxavətini balıqçı dostlarından əsirgəməyərək gecə səhərədək onların qurduğu toru həmişə balıq ilə doldururdu.

Dünyanın dörd bir tərəfindən insanlar bu füsünkar, göz oxşayan mənzərələri seyr etməyə Bakıya axışırlar. Xəzərin qumlu sahilində xatirə şəkli çəkdirərək, həmən vaxtı əbədiləşdirirlər. Bir növ Bakının ağuşunda Xəzəri bir ziyarətgah, bir məbəd bilib onunla baş-başa qalmağa alüdə olmuşlar.Hər il Xəzərin sahili qaynaşan arı pətəyini xatırladır.Sahilboyu qamışdan toxunaraq səliqə ilə yan-yana qurulan çadırlar,dənizin necə sevimli, necə qonaq qaralı olduğundan xəbər verir.İnsanlar dəniz üçün darıxanda,dəniz də insanlar üçün öz sadiq dostları üçün darıxır, qəribsəyir.Axı dənizin də ürəyi var.Həm də çox geniş.Belə bir el deyimi var ki,dənizə yüz çay axar bəlli etməz.Amma çaya bir sel gələr aşar, daşar,öz məcrasindan,əndazəsindən çıxaraq ətrafa səs-küy salar. Qocaman,min illərin yadigarı dənizsə öz müdrüklüyünü göstərərək süküta qərq olar, gərginliyini bəlli etməz.Sahildən təxminən yüz metr aralida iri, boz qayalıqlar, qızmar iyul ayının günəşindən dəniz sularının parıltısından rəng alaraq zər səpilmiş kimi par-par parıldayırdı.Dənizin şor sularından içib doymuş yamyaşıl yosunlar dalğalara qapılıb qayalıqlara tərəf üzərək, ətəklərinə ilişib,kuləklərin təsirindən suda yelləncək kimi yellənirdilər.Külək qalxdıqca coşan vəhşi dalğalar,zərblə qayalara çırpılaraq, vahiməli səslər çıxarirdı.Elə bil öz hirsini, qəzəbini həmən qayalıqiarda boğmağa,ram etməyə çalışırdılar.Bu da tamam ayrı bir mənzərəni əks etdirirdi.Enerjisi böyük,riski yüksək dəniz öz sinəsində çox möcüzələr gizlədib, sirlər saxlayıb.Təkcə dili yoxdur.Dili olsaydı bizə nələr danışardı.Eh, dəniz, dəniz.İstədikdə insanlara qucaq açar,bir ana kimi bağrına basar.Acıqlı vaxtları da olur dənizin,çalxalanıb bulandığı, qəzəblənib, coşub, qabardığı günlər də.Bəzən də öz cilovunu dişləri ilə gəmirib, didib parçalayıb qıran, qəzəbli,özünü ora-bura çırpan,kişnərtisi qulaq batıran bir köhlən at kimi nərə çəkib,şahə qalxıb bizi özündən uzaqlaşdırar. Belə vaxtlarda ona yaxın getməyə heç kəs cürət eləməz. Gəmilər lövbər salıb,hərəkətini durdurar.Hətta tərkindəki canlılar belə, dibə çöküb,çarəsizcə qumluqlarda, mərcanlıqlarda gizlənərlər.

Amma, dənizin sakit vaxtında isə gilavar küləyindən əmələ gələn qırçınlı suların səsi və özü insanın əsəblərinə dərman və məihəm olar. Bu boz, fədakar qayalıqiar da eynilə quduz dalğaların hücumuna sinə gərərək əzəmətli şəkildə dənizdə qürurla dayanmışdılar. Bir-biri ilə bəhsə girən, coşduqca-coşan nəhəng dalğalar bu qayalıqları döyəclədikcə elə bil onları ağır bir sınaqdan, imtahandan keçirirdi. Boz qayalıqlar isə duruşunu pozmadan, ağayana, əzmlə hər cəfaya dözərək, dənizə qarşı olan sədaqətini, məhəbbətini bəyan edirdi.

Bu əsnada cavan bir rəssam möhkəm istidən alnında, gicgahlarında puçurlanmış tər damcılarını, əlində tutduğu ağ dəsmalı ilə silə-silə görünən boz, sərt qayalıqların birinin başında dayanmışdı.Onda rəsm çəkmək istəyi hər halından bəlli idi.Rəssam dənizə baxırdı,dəniz rəssama.Çoxdan görüşməyən,illərlə ayrılıq,qəriblik çəkən iki mehriban dost kimi, elə bil qolboyun olub həsrət gidərirdilər.Gənc rəssam dənizi başdan-ayağa süzüb, beynində çek-çevir edərək,bir səmaya,bir qumlu sahilə,bir də suların çiyin söykədiyi boz,mərmər kimi parıldayan qayalıqları gözdən,nəzərdən keçirirdi.Fikirləşirdi ki, necə ölçüb-biçsin ki, qarşısındakı dənizi əhatəli şəkildə tabloya sığışdıra bilsin.Rəssam dənizin bu müdhiş mənzərəsini çox həvəslə çəkməyə hazırlaşırdı.Sol əlində tutduğu müxtəlif rənglərdən ibarət olan palitrasını,sağ əlində isə orta qalınlıqda sivri uclu uzun taxta fırçasını rənglərin üzərində tez-tez gəzdirərək lazimi rəngləri əldə etməkdən ötrü, onları bir-birinə qarışdırıb, əvvəlcədən qarşısında yerləşdirdiy tablosunda dəniz mənzərəsi əsəri yaratmaqla məşğul idi.Doğrudan da təbiətlə birləşən insan bütövləşərək böyük işlər, xariqələr yaradır.Rəssamın günəş sönmədən öz əsərini başa vurub,bitirmək fikrində olduğu başını qaldıraraq tez-tez günəşə baxmasından açıq-aydın sezilirdi.Bu gənc rəssamın hərəkətlərində bir qeyri-adilik və eyni zamanda dənizə qarşı bir sevgi, ehtiram hiss oiunurdu.Dəqiqələrcə nəzərlərini dənizdən,ləpələrdən çəkməyərək, uzun-uzadı xəyallara daldığı elə uzaqdan hiss olunurdu.Elə bil bu işin çoxdan arzusunda idi,indi isə arzusuna çatmışdı.Elə bil dənizi əzizləyirdi, məftun olmuşdu bu füsünkar, tayı-bərabəri olmayan bu gözəlliyə.Yer üzərində elə bir insan tapılmaz ki, dənizi sevməsin, yaşlı, cavan, uşaq, böyük,-hər kəs.

Hər tərəfdən həyat fışqıran dəniz, ən çox da uşaqların sevinci olur. Onların öz kiçik dünyalarına daha bir dəniz adlı mavi dünya birləşdirərək sevinclərini ikiqat artırır,sahil, ayaqlarının altında xırçıldayan qum,onların sadiq dostuna çevrilir.Öz oyuncaq vedrələrinə bu rəngarəng irili-xırdalı balıqqulaqlarını toplayaraq özləri ilə evlərinə də gətirirlər.Bir oyuncaq edib öz oyuncaqlarına qatırlar.Qulaqlarına tutaraq guya,dəniz dalğalarının səsini dinləyirlər.Yalın ayaq,qızmar qızılı quma bata-bata gəzərək,o ki var əylənən uşaqlar,ayaqlarını suda yellədərək,şor suyu bir-birlərinə sıçradır,səs-küy salaraq,uşaq xoşbəxtliyi ilə suyu şappıldadaraq yıxıla-dura suda gəzməyə çalışırlar.Ard-ardınca gələn dalğalar isə onları müntəzəm surətdə sahilə itələyərək qorumağa çalışır.Möcüzəvi dəniz hamıya dost,sirdaş olmaqla yanaşı evimizi bəzəyən bir sənət əsəridir. Dünyanın hər yerində elə ev,məkan tapılmaz ki,o yerdə dənizə aid nə isə olmasın.Dəniz bilavasitə hər şeyi ilə Nuh əyyamından bizə yadigar qalmış bir heçlikdən doğan həyat möcüzəsi olmaqla yanaşı bir nemətdir, bir sərvətdir.

Evlərimizin ən işıqlı guşəsində içərisi müxtəlif rəngli balıqlar olan akvariumlara yer vermişik ki, bu da hər fəsildə bizə evimizin içərisində olan balaca dənizi xatırladır.Başımızın üstündə divarın ən görünən hissəsində dənizə aid rəsm əsərləri asmışıq ki, bizə dənizi yada salır. Geyindiyimiz libaslarımızın elə çox zaman üzərində dənizə aid rəsmlər mövcuddur.Dənizin sahilindən yığılan irili-xırdalı əlvan balıqqulaqlarından düzəldilən və bir çox ictimai yerlərdə, məkanlarda divarları bəzəyən tablolar ilə rastlaşırıq.Hətta çox qədimlərdən bizə məlum olan qum saatını nümunə göstərmək olar. Övladlarımıza dəniz adını vermişik ki, bu da əlbəttə ki, dənizə olan sonsuz sevgimizdən irəli gəlir.Dənizlər eyni zamanda su yoludur.

Dənizin dibində ayrı bir həyat, üstündə ayrı bir həyat, sahilində ayrı bir həyat, başinin üstündə isə tamam ayrı ulduzlu səma, günəş,buludlar və aydan ibarət ayrı bir həyat var.Bu dörd fərqli-fərqli həyatları özündə əks etdirərək,cəm edib birləşdirən möcüzəvi bir varlıqdır, sirli-sehrli, mavi dalğaları ilə həmişə üzümüzə gülümsəyən dəniz.Sahil də dənizi dövrəyə almaqla elə bil onu yad gözdən,yad nəzərdən qoruyur.Yuxularımızı süsləyən dəniz,hər gün axşamçağı ard-ardınca vıjıltı ilə gələn irili-xırdalı ləpələrin qanadında yellənib,ağappaq süd kimi ayın nurunda yuyunub, yastığına baş qoyub,buludları özünə pərqu yorğan edib,şipşirin yuxularda yatsın, dincəlsin.Dəniz hər hali ilə gözəldir.Bir də axı,dənizlər çirk götürmür.Onlar çox pak,məsum və müqəddəsdirlər.